| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 20.11.2019 |
| QEYDİYYAT NÖMRƏSİ | 452 |
| ADI | “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın İdarəetmə Qrupunun yaradılması haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Xalq Qəzeti (Dərc olunma tarixi: 21-11-2019, Nəşr Nömrəsi: 258), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2019, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1872) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 21.11.2019 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 190.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14201911200452 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 22.11.2019 |

**“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın İdarəetmə Qrupunun yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 6.2.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın İdarəetmə Qrupu yaradılsın.

2. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın İdarəetmə Qrupunun Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 20 noyabr 2019-cu il
452

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 20 noyabr tarixli 452 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın İdarəetmə Qrupunun**

**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın İdarəetmə Qrupu (bundan sonra – İdarəetmə Qrupu) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik) nəzdində yaradılır.

1.2. İdarəetmə Qrupu müstəqil balansa, xəzinə və bank hesablarına, VÖEN-ə, üzərində Nazirliyin və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.3. İdarəetmə Qrupunun fəaliyyəti ilə bağlı xərclər Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra – ARDNF) vəsaiti hesabına maliyyələşdirilir.

## 2. İdarəetmə Qrupunun fəaliyyətinin təşkili

2.1. İdarəetmə Qrupuna təyinatlar İdarəetmə Qrupunun ştat cədvəlinə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil naziri tərəfindən aparılır.

2.2. İdarəetmə Qrupunun ştat cədvəli və Azərbaycan Respublikasının büdcə təsnifatına uyğun tərtib edilən illik xərclər smetası Nazirlik tərəfindən ARDNF ilə razılaşdırılmaqla təsdiq edilir.

## 3. İdarəetmə Qrupunun vəzifələri

3.1. İdarəetmə Qrupunun aşağıdakı vəzifələri vardır:

3.1.1. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tərəfdaş xarici ali təhsil müəssisələri ilə birgə beynəlxalq ikili diplom proqramlarının təşkilində iştirak edir;

3.1.2. ixtisas proqramlarının və təhsil səviyyələrinin seçilməsi üçün tədbirlər görür;

3.1.3. tərəfdaş xarici ali təhsil müəssisəsi ilə yerli ali təhsil müəssisəsi arasında əməkdaşlıq müqavilələrinin imzalanması üçün hazırlıq işləri görür;

3.1.4. təlim-tədris prosesində iştirak edəcək əcnəbi professor-müəllim heyətinin fəaliyyətinin təşkili və ezamiyyətlərinin maliyyələşdirilməsi üçün tədbirlər görür;

3.1.5. əcnəbi professor-müəllim heyətinin mühazirələrə cəlb ediləcəyi tədris fənlərinin siyahısının hazırlanması üçün tədbirlər görür;

3.1.6. əcnəbi professor-müəllim və inzibati heyətin Azərbaycan Respublikasına səfərləri ilə bağlı müvafiq beynəlxalq nəqliyyat, sığorta, viza, qeydiyyat və miqrasiya məsələlərinin həllində beynəlxalq ikili diplom proqramlarının həyata keçirildiyi ali təhsil müəssisələrinə dəstək verir;

3.1.7. əcnəbi professor-müəllim heyətinin akademik fəaliyyətinin keyfiyyətinin monitorinqi və ali təhsil müəssisələri ilə əməkdaşlıq şəraitində tədris prosesinin nəticələrinin qiymətlən-dirilməsi mexanizmini yaradır;

3.1.8. beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi ali təhsil müəssisələrində tədris prosesinin beynəlxalq təcrübə nəzərə alınmaqla təşkili üzrə tədbirlər görür;

3.1.9. beynəlxalq ikili diplom proqramlarının həyata keçirildiyi ali təhsil müəssisələrində yerli və əcnəbi professor-müəllim heyətinin, istedadlı tələbələrin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan elmi tədqiqat qruplarının yaradılması və elmi araşdırma proqramlarının hazırlanması prosesinin koordinasiyasını həyata keçirir;

3.1.10. beynəlxalq ikili diplom proqramlarının həyata keçirildiyi ali təhsil müəssisələri üzrə müvafiq elmi tədqiqatların və elmi məqalələrin nüfuzlu beynəlxalq elmi nəşrlərdə dərcinin qeydiyyatını və təhlilini ali təhsil müəssisələri ilə birgə aparır;

3.1.11. beynəlxalq ikili diplom proqramları çərçivəsində dövlət vəsaiti və öz vəsaiti hesabına təhsil alacaq Azərbaycan Respublikası vətəndaşlarının sayının illər üzrə proqnozlaşdırılmasına, beynəlxalq ikili diplom proqramlarının gələcək dayanıqlılığına dair mexanizm hazırlayır;

3.1.12. beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi qaydalarının icrasını təmin edir;

3.1.13. Dövlət Proqramı çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi və Azərbaycan Respublikası vətəndaşlarının xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsili ilə bağlı elektron məlumat bazasını formalaşdırır;

3.1.14. beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi ilə bağlı əlaqələndirməni həyata keçirir;

3.1.15. Azərbaycan Respublikası vətəndaşlarının xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsilinin maliyyələşdirilməsi qaydalarının icrasını təmin edir;

3.1.16. xaricdə doktorantura səviyyəsində təhsil almaq üçün sənədlərin qəbulu barədə elanın verilməsini, müraciətlərin qiymətləndirilməsini, namizədlərin seçiminin aparılmasını, onların xaricdə təhsilinin təşkilini və maliyyələşdirilməsini təmin edir;

3.1.17. Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsil almaları üçün beynəlxalq reytinq cədvəlləri nəzərə alınmaqla, xarici ölkələrin müvafiq ali təhsil müəssisələrinin siyahısını hər il Nazirliyin internet səhifəsində yerləşdirir;

3.1.18. Azərbaycan Respublikası vətəndaşlarının xaricdə təhsil alacaqları ixtisas istiqamətlərinin ölkənin inkişaf prioritetlərinə uyğun müəyyən edilməsi üçün təkliflər verir;

3.1.19. təhsil dövründə doktorantların akademik göstəricilərinin monitorinqini apararaq, hesabatlar hazırlayır və ixtisas istiqamətlərinə uyğun sahədə dövlət siyasətini (tənzimləməni) həyata keçirən dövlət orqanlarına (qurumlara) təqdim edir;

3.1.20. Dövlət Proqramı çərçivəsində təhsil almış şəxslərin işlə təminatı sahəsində dəstəyin göstərilməsi məqsədilə işəgötürənlərlə əlaqələndirmə mexanizminin yaradılması və dövlət qulluğuna qəbulla bağlı aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq edir;

3.1.21. beynəlxalq ikili diplom proqramının icrasının monitorinqini həyata keçirir;

3.1.22. beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi yerli ali təhsil müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil proqramlarının xarici ali təhsil müəssisələrinin təcrübəsi əsasında hazırlanması işinin monitorinqini aparır;

3.1.23. Dövlət Proqramının maliyyələşdirilməsi üçün ayrılan maliyyə vəsaitlərinin istifadəsinin monitorinqini aparır;

3.1.24. Dövlət Proqramının icrası haqqında Nazirliyin rəhbərliyinə müntəzəm olaraq məlumat verir;

3.1.25. Dövlət Proqramının icrası ilə bağlı ildə bir dəfə maliyyə hesabatlarını maliyyələşdirən quruma (qurumlara) təqdim edir;

3.1.26. İdarəetmə Qrupunun fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırır;

3.1.27. Dövlət Proqramının icrası ilə bağlı qüvvədə olan normativ hüquqi aktlarda dəyişikliklər edilməsi barədə təkliflər hazırlayır;

3.1.28. Dövlət Proqramı üzrə statistik məlumatları hazırlayır, onların emalını aparır, tələb olunan məlumatları aidiyyəti üzrə təqdim edir;

3.1.29. Dövlət Proqramının fəaliyyət istiqamətlərinə uyğun olaraq digər işləri həyata keçirir.

**4. İdarəetmə Qrupunun hüquqları**

4.1. İdarəetmə Qrupunun aşağıdakı hüquqları vardır:

4.1.1. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə icraçı orqanlardan məlumat almaq, sorğular etmək, müzakirələr təşkil etmək və təkliflər vermək;

4.1.2. İdarəetmə Qrupunun say tərkibi və vəzifə maaşları barədə Nazirliyin rəhbərliyinə və ARDNF-yə təkliflər vermək;

4.1.3. tərəfdaş xarici ali təhsil müəssisələrinin seçilməsi meyarlarının və prosedurlarının təkmilləşdirilməsi üzrə təkliflər vermək;

4.1.4. Dövlət Proqramı çərçivəsində doktorantura səviyyəsi üzrə təhsil alacaq şəxslərin təhsilinin işəgötürənlərin iştirakı ilə müştərək maliyyələşdirmə mexanizmlərinin hazırlanması üçün təkliflər vermək;

4.1.5. apardığı monitorinqin nəticələri əsasında hesabatlar hazırlamaq və ixtisas istiqamətlərinə uyğun sahədə dövlət siyasətini (tənzimləməni) həyata keçirən dövlət orqanlarına (qurumlarına) təqdim etmək;

4.1.6. beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi yerli ali təhsil müəssisələrində əcnəbi professor-müəllim heyətinin kurikulumların yenilənməsinə cəlb edilməsi işinin monitorinqini təşkil etmək;

4.1.7. beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi yerli ali təhsil müəssisələrinin inkişaf göstəricilərinin beynəlxalq reytinqin tələblərinə uyğunlaşdırılması üzrə əlavə tədbirlər görmək;

4.1.8. qanunvericiliyə zidd olmayan və Dövlət Proqramında nəzərdə tutulan digər hüquqları həyata keçirmək.